**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**SEVDA ZÖHRAB qızı CƏFƏROVA**

# AZƏRBAYCAN BƏSTƏKARLARININ VOKAL YARADICILIĞINDA ŞİFAHİ ƏNƏNƏLİ MUSİQİ JANRLARININ TƏCƏSSÜMÜ

**6213.01 – Musiqi sənəti**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2017**

*Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində yerinə yetirilmişdir.*

**Elmi rəhbər:** **Cəmilə İsmayıl qızı Həsənova**
sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Sevda Firudin qızı Qurbanəliyeva**
sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Səadət Təhmiraz qızı Şirinova**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqi tarixi və nəzəriyyəsi" kafedrası**

Müdafiə ____noyabr 2017-ci ildə saat ______ Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat _____ oktyabr 2017-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru,
dosent **Məmmədova H.V.**

## DİSSERTASİYANIN ÜMUMİ XASİYYƏTNAMƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan musiqi mədəniyyətində bəstəkarlıq sənətinin formalaşması, musiqi janrlarının mənimsənilməsi şifahi ənənəli musiqi ilə qarşılıqlı əlaqədə özünü göstərir. Demək olar ki, bütün musiqi janrlarının – musiqili-səhnə, vokal, instrumental və s. janrların dərin kökləri şifahi ənənəli musiqidən qidalanır. Musiqişünaslıqda bəstəkar yaradıcılığı ilə şifahi ənənəli musiqi əlaqələrinin araşdırılması hər zaman aktual məsələ olmuşdur və bu gün də öz aktuallığını saxlamışdır. Bu istiqamətdə tədqiqatların aparılması çox geniş əhatə dairəsinə malikdir: şifahi ənənəli musiqinin ayrı-ayrı təbəqələrinə aid janrların əsas cəhətlərinin araşdırılmasından – onların musiqi dilinin və ifaçılıq xüsusiyyətərinin bəstəkar yaradıcılığında tətbiqinə qədər çoxcəhətli məsələlər önə çıxır.

Bizim bu mövzuya müraciətimiz şifahi ənənəli musiqi janrlarının vokal musiqiyə təsirinin öyrənilməsi və bundan irəli gələrək, bəstəkarların əsərlərində janr və musiqi dili sahəsində maraqlı cəhətlərin üzə çıxarılması ilə bağlıdır. Xüsusilə xalq mahnıları, aşıq havaları, təsniflər bəstəkar yaradıcılığında mahnı və romans janrının inkişafı üçün əsas mənbə olmuşdur. Azərbaycan bəstəkarlarının mahnı və romansları musiqi forması, melodiya, harmoniya, ritm baxımından maraqlı cəhətləri ilə, milli xüsusiyyətləri ilə diqqəti cəlb edir. Onların araşdırılması vokal musiqinin bədii keyfiyyətlərini, şifahi ənənəli musiqi janrları ilə əlaqələrini üzə çıxarmağa imkan verir.

Mahnı və romans janrlarında əsərlərin yaradılması bəstəkarlardan böyük sənətkarlıq tələb edir. Xüsusilə xalq musiqisi və muğamlarla bağlılıq bu janrların dərin köklərini üzə çıxarmaqla, onların mənəvi qüvvəsini və insanlara estetik zövq və təsirini daha da artırır. Bu baxımdan Azərbaycan bəstəkarlarının vokal yaradıcılığında şifahi ənənəli musiqi janrlarının təcəssümü məsələlərinin xüsusi olaraq araşdırılması mövzunun aktuallığını şərtləndirir.

**Mövzunun işlənmə dərəcəsi.** Mövzunun araşdırılması iki əsas cəhətlə - şifahi ənənəli musiqi janrlarının və Azərbaycan bəstəkarlarının vokal yaradıcılığının araşdırılması ilə bağlıdır ki, bu sahələr bir çox musiqişünasların diqqət mərkəzindədir. Bu məsələlərin ayrı-ayrılıqda öyrənilməsinə bir sıra tədqiqat əsərlərində rast gəlirik.

Bir sıra musiqişünaslıq tədqiqatlarında şifahi ənənəli musiqi janrlarının - xalq mahnılarının, instrumental rəqs musiqisinin, aşıq yaradıcılığının, dini musiqinin, muğam sənətinin, o cümlədən, muğam dəstgahlarının, zərbi muğamların tədqiqi öz əksini tapmışdır. Eyni zamanda, musiqişünaslar

tərəfindən ayrı-ayrı Azərbaycan bəstəkarlarının vokal əsərləri bu və ya digər cəhətdən araşdırılmışdır. Bu qəbildən olan tədqiqatlar monoqrafiyalarda, dissertasiyalarda, broşura və elmi-publisistik məqalələrdə, həmçinin, dərsliklərdə və dərs vəsaitlərində öz əksini tapmışdır.

Azərbaycan musiqişünaslığında şifahi ənənəli musiqi yaradıcılığına həsr olunmuş bir sıra tədqiqat əsərləri vardır. Şifahi ənənəli musiqi janrları haqqında əhatəli məlumat mənbəyi kimi Üzeyir Hacıbəylinin[1], Məmmədsaleh İsmayılovun[2], Əminə Eldarovanın[3], Bayram Hüseynlinin[4], Rauf İsmayılzadənin[5], T.Məmmədovun[6] , Əfruzə Məmmədovanın[7], Ramiz Zöhrabovun[8], Aydın Ziyadlının[9] və digər musiqişünasların elmi əsərlərini qeyd edə bilərik. Bu tədqiqatlarda xalq mahnı və rəqsləri, aşıq yaradıcılığı və muğam sənəti tarixi və nəzəri baxımdan araşdırılmışdır.

Azərbaycan bəstəkarlarının vokal yaradıcılığının araşdırılmasına İmruz Əfəndiyevanın[10], Ceyran Mahmudovanın[11], Afaq Qəniyevanın[12], Mehriban Əhmədovanın[13] tədqiqatlarında diqqət yetirilmişdir.

---

[1] Hacıbəyli Ü.Ə. Azərbaycan türklərinin musiqisi haqqında. (Təqdim edəni, ön söz və lüğətin müəllifi F.Əliyeva). B.: Adiloğlu, 2005. 74 s.; Hacıbəyov Ü.Ə. Əsərləri. II cild. (Cildin redaktoru M.İbrahimov; tərtibat, kommentariya və lüğət Q.Qasımovundur). B.: Azərb.EA nəşri, 1965.

[2] İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları. Yenidən işlənilmiş və tamamlanmış nəşr. B.: İıq, 1984.

[3] Eldarova Ə.M. Azərbaycan aşıq sənəti. B.: 1986.

[4] Hüseynli B.X. Vokal və instrumental musiqi formaları. // "Musiqi və həyat" Məqalələr məcmuəsi. B., "Bilik" cəmyyəti, 1961. 12-19 s.; Hüseynli B. Azərbaycan xalq rəqs melodiyaları. I dəftər. Yallı. Bakı, 1965; II dəftər. Halay. Bakı, 1966.

[5] Azərbaycan xalq musiqisi (oçerklər). Bakı, Elm, 1981,

[6] Məmmədov T.A. Azərbaycan xalq-professional musiqisi: aşıq sənəti. Dərs vəsaiti. B.: Şur, 2002.

[7] Мамедова А.З. Музыкальные миниатюры Азербайджана. Б.: Элм, 1990.

[8] Zöhrabov R.F. Muğam. B.: Azərnəşr, 1991. 219 s.;Zöhrabov R.F. Azərbaycan şifahi ənənəli professional musiqisi. B., 1998.; Zöhrabov R.F. Zərbi-muğamlar. B.: 2004. Зохрабов Р.Ф. Азербайджанские теснифы. М.: Сов.композитор, 1983.

[9] Зиятлы А.А. Современная азербайджанская народная песня. Автореф. дисс... канд. искусств. Л.: 1985.

[10] Эфендиева И.М. Азербайджанская советская песня. Б.: 1983. 150 с.; Эфендиева И. Мугам и композиторское творчество. / ж. «Ирс - Наследие», № 2-3, 2006.

[11] Mahmudova C.E. Azərbaycan bəstəkar mahnılarında poeziya ilə musiqi. B.: 2009; Mahmudova C.E. Mahnının qoşa qanadı – poeziya və musiqi. B.: "Mars-print". B.: 2013; Mahmudova C.E. Azərbaycan xalq və bəstəkar mahnılarının mətn xüsusiyyətləri. Dərs vəsaiti. B.: 2014.

[12] Qəniyeva A.A. Azərbaycan bəstəkarlarının yaradıcılığında qəzəl-romanslar (janr, lad-

Musiqişünaslıq tədqiqatlarının icmalından görünür ki, şifahi ənənəli musiqi janrları və Azərbaycan bəstəkarlarının vokal yaradıcılığı müxtəlif cəhətlərdən araşdırılmışdır. Lakin vokal musiqi sahəsində şifahi ənənəli musiqinin və bəstəkar əsərlərinin janr əlaqələri baxımından tədqiqat aparılmamışdır. Bütün bunları nəzərə alaraq, biz Azərbaycan bəstəkarlarının vokal yaradıcılığına xüsusi olaraq müraciət etmişik.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan bəstəkarlarının vokal yaradıcılığının tədqiqata cəlb olunaraq, mahnı və romansların şifahi ənənəli musiqi janrları ilə əlaqələrinin, musiqi dilinin məqam, melodika, forma quruluşunun öyrənilməsindən ibarətdir. Bu məqsəddən irəli gələrək, dissertasiya işində aşağıdakı vəzifələrin həlli qarşıya qoyulur:

1) Şifahi ənənəli musiqi yaradıcılığının səciyyəvi cəhətlərinin araşdırılması və əsas janr xüsusiyyətlərinin göstərilməsi;

2) Azərbaycan bəstəkarlarının vokal yaradıcılığının inkişaf mərhələlərinin tədqiqi və bu baxımdan şifahi ənənəli musiqi janrlarının rolunun üzə çıxarılması;

3) Azərbaycan bəstəkarlarının vokal əsərlərinin mövzu dairəsi və janr rəngarəngliyi baxımından təhlili;

4) Azərbaycan bəstəkarlarının vokal əsərlərinin məqam, melodika və forma quruluşu xüsusiyyətlərini tədqiq etmək;

5) Azərbaycan bəstəkarlarının vokal yaradıcılığının özünəməxsus xüsusiyyətlərini aşkarlamaq və şifahi ənənəli musiqi ilə janr əlaqələrinin əsas istiqamətlərini göstərməkdən ibarətdir.

**Dissertasiyanın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq, Azərbaycan bəstəkarlarının vokal yaradıcılığı ilə şifahi ənənəli musiqinin janr əlaqələri tədqiq edilmişdir. Bu baxımdan şifahi ənənəli musiqinin bəstəkarların vokal əsərlərinin musiqi dilinə və üslub xüsusiyyətlərinə təsiri açıqlanmışdır:

– bəstəkarların müxtəlif janrlı vokal əsərləri - mahnı və romansları təhlil edilmiş, onların mövzu dairəsi, janr xüsusiyyətləri, xalq musiqisinə və muğama yaradıcı münasibətdən meydana gələn yeni cəhətlər üzə çıxarılmışdır;

– bu baxımdan, bəstəkar mahnılarında xüsusi olaraq janr əlaqələri, lirik mahnılar, laylay, uşaq mahnıları, əmək mahnıları, mərasim mahnıları,

---

intonasiya və ritmika). Sənətşün. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis-nın Avtoreferatı. Bakı, 2011.

[13] Ахмедова М.Ф. Национальные истоки детских песен азербайджанских композиторов. Автореферат дисс… канд. искусствоведения. Б.: 2002.

aşıq havaları, təsniflərlə bağlılıq öyrənilmişdir;

– azərbaycan şifahi ənənəli musiqi janrlarının əsas xüsusiyyətlərinin bəstəkarların mahnı və romanslarına təsiri nəticəsində musiqi üslubunun milli çalarlarla yeniləşməsi, melos, intonasiya və ritmikanın rolu araşdırılaraq üzə çıxarılmışdır;

– azərbaycan bəstəkarlarının vokal əsərlərinin bədii keyfiyyətləri, bəstəkarların yenilik axtarışları, Azərbaycanda mahnı və romans janrının inkişafı baxımından xalq musiqisi, aşıq və muğam ənənələrindən bəhrələnmə sayəsində irəli gələn xüsusiyyətlərin araşdırılması, ilk dəfə olaraq, dissertasiya işi səviyyəsində təqdim olunmuşdur.

**Dissertasiyanın metodu və metodoloji əsası.** Dissertasiyanın musiqi nəzəriyyəsi ilə bağlı tədqiqatlar, musiqişünas alimlərin nəzəri müddəaları təşkil edir. Tədqiqat prosesində nəzəri musiqişünaslıqda qəbul olunmuş təhlil metodlarından, o cümlədən, tarixi-nəzəri və müqayisəli təhlil metodundan istifadə edilmişdir.

Metodoloji əsasını Azərbaycan musiqişünaslarının – Üzeyir Hacıbəylinin, Məmmədsaleh İsmayılovun, Elmira Abasovanın, Ramiz Zöhrabovun, İmruz Əfəndiyevanın, Rəna Məmmədovanın, Gülnaz Abdullazadə, Fərəh Əliyevanın, Cəmilə Həsənovanın, Şəhla Həsənovanın, Ceyran Mahmudovanın, Gülzar Mahmudovanın və başqalarının Azərbaycan musiqisinə, bilavasitə bəstəkar yaradıcılığına və milli musiqinin nəzəri əsaslarına həsr olunmuş tədqiqatları dissertasiyanın metodoloji bazasını təşkil etmiş, işdə bütün bu musiqişünasların elmi müddəalarından bir mənbə kimi istifadə olunmuşdur.

**Tədqiqatın obyektini** Azərbaycan bəstəkarlarının vokal yaradıcılığında şifahi ənənəli musiqi janrlarının tətbiqi xüsusiyyətlərinin öyrənilməsi, mahnı və romanslarda şifahi ənənəli musiqi janrlarının əsas cəhətlərinin üzə çıxarılması təşkil edir.

**Tədqiqatın predmeti** Azərbaycan bəstəkarlarının vokal əsərlərində özünü göstərən şifahi ənənəli musiqinin müxtəlif janrlarının musiqi dilinin xüsusiyyətlərinin təhlili, bəstəkarların yaradıcılığında milli musiqinin qanunauyğun cəhətlərinin öyrənilməsi ilə bağlıdır.

**Dissertasiyanın materialı.** Azərbaycan bəstəkarlarının ayrı-ayrı illərdə çap olunmuş mahnı və romansları, eləcə də şifahi ənənəli musiqi nümunələri tədqiqatın materialını təşkil edir. Əlbəttə ki, bütün bəstəkarların vokal yaradıcılığının bir dissertasiya çərçivəsində əhatə olunması mümkün deyil. Bu, çox böyük həcmli musiqi materialıdır. Buna görə də biz bir neçə bəstəkarın yaradıcılığına müraciət edərək, öz tədqiqatımızı aparmışıq. Bu sırada Üzeyir Hacıbəylinin, Asəf Zeynallının, Səid Rüstəmovun, Cahangir

Cahangirovun, Tofiq Quliyevin, Fikrət Əmirovun, Ağabacı Rzayevanın, Şəfiqə Axundovanın, Ramiz Mirişlinin və digər bəstəkarların mahnı və romansları tədqiqatın materialı kimi qeyd olunmalıdır.

**Dissertasiyanın elmi-təcrübi əhəmiyyəti.** Tədqiqatın materiallarından, əldə edilmiş elmi müddəalardan gələcək elmi işlərdə, tədqiqat və mühazirələrdə, seminarlarda istifadə edilə bilər. Xüsusilə ali və orta ixtisas məktəblərinin nəzəri və praktiki kurslarında – "Azərbaycan musiqi tarixi", "Azərbaycan xalq musiqisi yaradıcılığı", "Azərbaycan xalq musiqisinin əsasları" və digər fənlərin tədrisində faydalı ola bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Naxçıvan Dövlət Universitetinin "İncəsənət" şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları müəllifin elmi konfranslarındakı çıxışlarında, yerli və xarici elmi məcmuələrdə çap olunmuş bir sıra məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi Giriş, 2 fəsil, 4 yarımfəsil, Nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

Dissertasiyanın **I fəsli "Azərbaycan bəstəkarlarının vokal yaradıcılığında xalq musiqisinin xarakterik cəhətlərinin tədqiqi"** adlanır və iki yarımfəsildən ibarətdir.

**I fəslin birinci yarımfəsli 1.1. "Şifahi ənənəli Azərbaycan musiqisinin janrları və onların bəstəkar yaradıcılığına təsiri"** məsələləri araşdırılmışdır. Biz XX əsrin ortalarında və ikinci yarısında bəstəkarların mahnı yaradıcılığına nəzər salaraq, bu janr nümunələrində xalq mahnısından istifadə məsələlərini tədqiq etmişik.

Azərbaycan bəstəkar yaradıcılığında vokal musiqinin əsas janrları olan mahnı və romansların inkişafı 1920-ci illərdən başlamışdır. Həmin dövrdə tarixi şərait, Azərbaycan cəmiyyətində baş verən dəyişikliklər, ölkədə yeni musiqi mədəniyyətinin quruculuğu, musiqi təhsili sisteminin yaranması, milli kadrların və musiqi kollektivlərinin yetişməsi ilə bəstəkar yaradıcılığında da bir çox musiqi janrlarının mənimsənilməsi prosesi gedir. Bu dövrün coşğun yüksəliş əhval-ruhiyyəsinə cavab verən ən əlverişli janr məhz mahnı idi.

Bəstəkarların mahnı yaradıcılığında xalq mahnılarından istifadə ilə bağlı bir neçə cəhət üzə çıxır: xalqın həyat şəraitindən, cəmiyyətdə baş verən hadisələrdən irəli gələrək, xalq mahnılarının musiqisinin yeni mətnlərlə oxunması; yeni yaranan musiqi kollektivlərinin repertuarı üçün xalq mahnılarının işlənilməsi; yaranan bəstəkar mahnılarında xalq mahnı melodiyalarının ayrı-ayrı elementlərindən istifadə olunmasını qeyd etməliyik. Bütün bunlar Azərbaycan musiqisində mahnı janrı ilə yanaşı, digər instrumental və vokal janrların da mənimsənilməsində və inkişafında mühüm rol oynamışdır.

Azərbaycan xalq mahnıları öz janr xüsusiyyətləri baxımından seçilərək, xalq məişətinin müxtəlif cəhətlərini, onun tarixini, dünyagörüşünü əks etdirir. Xalq mahnıları əmək, mərasim, məişət, tarixi janr qruplarına ayrılır. Bütün bu janrlara aid mahnılar öz məzmununa görə müxtəlifdir, obrazlı-poetik və musiqi məzmunu, musiqi dilinin xüsusiyyətləri ilə fərqlənirlər. Bəstəkar mahnıları ilə xalq mahnı yaradıcılığındakı janrların qarşılaşdırılmasından onların ümumi və fərqli janr, məzmun və musiqi dilinin xüsusiyyətləri üzə çıxır.

Biz öz tədqiqatımızda xalq və bəstəkar mahnılarının janr xüsusiyyətlərini araşdırarkən, Ü.Hacıbəylinin və M.Maqomayevin nota yazıb işlədikləri "Azərbaycan türk el nəğmələri" (1927) məcmuəsinə müraciət edirik. Həmin məcmuə musiqişünaslıqda böyük əhəmiyyətə malikdir və bəstəkar yaradıcılığında müxtəlif janrlı mahnıların meydana gəlməsinə təkan vermişdir. Tematik və janr xüsusiyyətlərinə görə məcmuə müxtəlif nümunələrlə zəngindir, burada məişət və əmək mahnıları, eləcə də lirik xalq mahnı melodiyaları öz əksini tapmışdır. Məcmuədə səs və fortepiano üçün mahnı işləmələrinin musiqisində janr xüsusiyyətlərindən irəli gələn cəhətlər və onların bəstəkarlıq üslubuna təsiri diqqəti cəlb edir.

Azərbaycan bəstəkarlarının mahnıları ilə xalq mahnılarının janr əlaqələrini ardıcıl izləyərək, qeyd etməliyik ki, xalq əmək mahnıları öz quruluşuna, ifadə vasitələrinə görə çox da mürəkkəb olmayaraq, əmək prosesində eyni cür hərəkətləri əks etdirən dəqiq ritmi ilə seçilir. Xalq əmək mahnılarının musiqisi əsasən reçitativ-deklamasiya xarakterlidir. Ü.Hacıbəylinin və M.Maqomayevin "Azərbaycan türk el nəğmələri" məcmuəsində verilmiş "Çək şumla yeri", "Biçinçiyəm", "İş başına", "Zəhmətin işığı", "Çıxdı günəş", "Səhər-səhər yaz çağı", "Şəfəq sökülərkən" və s. əmək mahnılarının nümunəsində görürük.

Azərbaycan bəstəkarlarının yaradıcılığında əmək mahnıları xüsusi bir qrup təşkil edir. Qeyd etmək lazımdır ki, bəstəkarların əmək mahnılarının əksəriyyəti sovet dövründə yaranmış və insanların rifahını, xoşbəxt həyatını, gözəl əmək şəraitini tərənnüm edir. Bu baxımdan, bəstəkar yaradıcılığında əmək mahnıları öz məzmununa görə qədim xalq əmək mahnılarından fərq-

lənir. A.Rzayevanın “Çoban Qara”, “Neftçi Qurban”, S.Rüstəmovun “Süreyya”, R.Mirişlinin “Qızqayıt”, C.Cahangirovun “Məhsul nəğməsi”, “Ağ şanı, qara şanı” və s. mahnılarını qeyd edə bilərik. Xalq mahnılarından fərqli olaraq, bəstəkar yaradıcılığında əmək mahnıları yeni məzmun kəsb etmişdir.

Azərbaycan xalq yaradıcılığında ənənəvi təqvim mərasim mahnıları əsasən Novruz bayramında oxunur, həmin mahnılar şən, şux, nikbin xarakter daşıyır. Novruzun ənənəvi atributları “Səməni”, “Kosa və Keçəl” xalq mahnı və rəqslərində tərənnüm olunmaqla yanaşı, müasir dövrdə bəstəkar mahnılarında da geniş yer alır. Bu baxımdan, bəstəkar yaradıcılığında mərasim mahnılarını ayrıca bir janr qrupuna aid etmək olar. Məsələn, C.Cahangirovun “Bayram axşamı”, R.Mirişlinin “Bayram axşamlarında”, C.Quliyevin “Novruz gəlir” və s. bu kimi mahnıların adından və məzmunundan onların xalqın həyat və məişətində mühüm əhəmiyyətə malik olan mərasimlərlə bağlı olduğu aydın görünür.

Xalq mahnıları irsində xalqın həyatında mühüm yer tutan toy mərasimi ilə bağlı ənənəvi mahnılar mövcuddur: “Aparmağa gəlmişik”, “Xoş getdin”, “Xoş gəldin”, “Əylən gəlin” və s. bu qəbildəndir. Müasir dövrdə toy mərasimində bəstəkar mahnılarına daha çox yer verilir ki, bu da bəstəkarları şən, oynaq mahnılar yazmağa sövq edir. Toy mərasimi ilə bağlı olan bəstəkar mahnılarından A.Rzayevanın “Evimizə gəlin gəlir”, F.Əmirovun “Toy” və s. mahnılar xüsusi qeyd olunmalıdır.

Ənənəvi-mərasim mahnılarının bir qismi insan həyatında baş verən kədərli hadisələrlə - yas mərasimi ilə bağlıdır. Ağılar, bayatılar və oxşamalar dediklərimizə nümunə ola bilərlər. Müasir dövrdə bəstəkar yaradıcılığında özünü göstərən ilahilər də bu janrın xüsusiyyətlərini əks etdirir. Bunlar XX əsrin sonlarında Azərbaycan bəstəkarlarının yaradıcılığında şəhidlərə həsr olunmuş mahnılardır və tarixi mahnı janrına aid edilə bilər.

Azərbaycan xalq məişət mahnıları öz məzmununa görə rəngarəng, öz ifadə vasitələri baxımından zəngindir. Bunlar laylay və uşaq mahnıları, lirik, satirik və məzəli mahnılardır.

Musiqi folklorunda laylay janrına aid nümunələrin ilk not yazıları “Azərbaycan türk el nəğmələri” məcmuəsində öz əksini tapmışdır. “Ninni” və “Beşik başında” mahnı işləmələrində Ü.Hacıbəyli bu janr üçün səciyyəvi olan cəhətləri saxlayaraq, öz bəstəkarlıq üslubuna uyğun cəhətlərlə zənginləşdirmişdir. Səciyyəvi janr və melodik-intonasiya xüsusiyyətlərinə malik olan laylay və beşik mahnılarından bəstəkar əsərlərində çox istifadə olunur. Bəstəkarlar tərəfindən yaradılan “Laylay” və “Beşik mahnısı” adlı vokal və instrumental nümunələr bunu sübut edir.

Azərbaycan musiqi irsində uşaq mahnılarını, tapmaca və oyunları da qeyd etməliyik. Bəstəkar yaradıcılığında uşaq mahnılarının ilk nümunələri Ü.Hacıbəyli tərəfindən yaradılmışdır. “Azərbaycan türk el nəğmələri” məcmuəsində çap olunmuş iki uşaq mahnısı – “Yetim quzu” və “Bir quş düşdü havadan” mahnıları Azərbaycan bəstəkar yaradıcılığında ilk uşaq mahnıları hesab olunur.

Azərbaycan bəstəkarlarının yaradıcılığında uşaq mahnıları xüsusi bir sahə kimi formalaşmışdır və bütün bəstəkarların musiqi irsində rəngarəng nümunələrlə təmsil olunmuşdur. Bu mahnılarda bəstəkarların uşaq dünyasına münasibəti, uşaqların təxəyyülünün məhsulu olan obrazlar, təbiət gözəlliklərinin uşaqların dili ilə tərənnümü, Vətən sevgisinin onlara aşılanması öz əksini tapmışdır.

Azərbaycan şifahi ənənəlli musiqi irsində xüsusilə lirik mahnılar geniş yayılmışdır. Lirik mahnıların əksəriyyəti məhəbbət və ailə həyatı mövzusundadır: “Gözəlim sənsən”, “Gəl-gəl”, “Küçələrə su səpmişəm”, “Üç telli durna”, “Dağlarda çiçək”, “Saçın ucun hörməzlər”, “Qalalıyam”, “Evlərinin dalı qaya”, “Əlində sazın qurbanı” və s. Azərbaycan bəstəkarlarının yaradıcılığında lirik mahnı janrı xüsusi yer tutur. Bu kimi mahnılarda lirik xalq mahnılarında formalaşmış ənənəvi cəhətlər özünü göstərir: məzmunu, poetik mətnin xüsusiyyətləri, musiqi dilinin ifadə vasitələri diqqətəlayiqdir. Bəstəkar mahnılarının təhlili onların xalq mahnılarında əsrlər boyu formalaşmış ənənəvi cəhətlərlə uyğunluğunu üzə çıxarır.

Xalq mahnılarının müəyyən hissəsi tarixi hadisələrin, ictimai-siyasi həyatın əsas cəhətlərini özündə əks etdirir. Bu kimi mahnıların böyük bir hissəsi öz mövzusuna görə milli-azadlıq hərəkatı, sosial-etiraz, kəndli və xalq üsyanı məzmununu özündə cəmləşdirir və Koroğlu, Qaçaq Nəbi, Qatır Məmməd, Səttərxan və başqa xalq qəhrəmanlarının adı ilə bağlıdır.

Azərbaycan bəstəkarlarının yaradıcılığında tarixi mahnılar 1920-30-cu illərdən meydana gəlməyə başlamışdır. İnsanlar çox vaxt xalq mahnılarının sözlərini müasir həyata uyğunlaşdıraraq oxuyurdular. Bu dövrdə mübariz ruhlu mahnılara tələbatı hiss edən Ü.Hacıbəyli “Komsomolçu qız”, “Süvari mahnısı”, “Qızıl əsgər marşı” və s. mahnıları bəstələdi. Həmçinin, vətənpərvərlik ruhlu mahnılardan S.Rüstəmovun “Sərhədçilər mahnısı”nı, T.Quliyevin və Niyazinin “Müdafiə marşı”nı göstərmək olar. Bütün bu mahnılar əsasən marş janrında yazılmışdır.

Xüsusilə 1941-1945-ci illərdə Böyük Vətən müharibəsi illərində bəstəkarlarının yaratdıqları tarixi vətənpərvərlik mahnıları geniş vüsət almışdır. Ü.Hacıbəylinin “Vətən ordusu”, “Yaxşı yol”, “Ananın oğluna nəsihə-

ti", "Şəfqət bacısı", "Döyüşçülər marşı" və s. bu dövrdə meydana gəlmiş vətənpərvərlik ruhlu mahnılardır. Bu dövrdə yaranan mahnıların bir ideya istiqamətində - vətənpərvərlik ruhunda olmasına baxmayaraq, onlar mövzusuna görə, obrazlı məzmununa görə çox rəngarəng idi.

Azərbaycan bəstəkarlarının musiqi yaradıcılığında XX əsrin son onilliyindən başlayaraq, Azərbaycan tarixində ən faciəvi hadisələrdən olan Qarabağın işğalı, 20 yanvar hadisələri, Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsi uğrunda axıdılan şəhid qanı Azərbaycan bəstəkarlarının da bu hadisələrə münasibətini əks etdirən mahnılarda öz əksini tapmışdır. XXI əsrin əvvəllərində də yaranmaqda davam edən bu kimi mahnılarda Vətənə sədaqət, milli azadlıq mübarizəsinə çağırış, qələbəyə inam, tarixi şəxsiyyətlər və şəhidlər təcəssüm olunur.

Azərbaycan bəstəkarlarının mahnı yaradıcılığında Ulu öndər Heydər Əliyevə həsr olunmuş mahnılar xüsusi yer tutur. Azərbaycan bəstəkarlarının Ulu öndər haqqında mahnılarında onun müasir Azərbaycan tarixindəki rolu, nurlu siması, əzəməti tərənnüm olunur, xalqı irəli aparması, xoşbəxt gələcəyə yol açması özünü göstərir. Bu mahnıların musiqi dilində möhtəşəmlik, geniş nəfəsli melodiya önə çıxır.

Tarixi mahnı janrının xalq musiqi irsində və bəstəkar yaradıcılığında öz əksini tapan nümunələrinin araşdırılması göstərir ki, bu janrın əsas xüsusiyyətləri bəstəkar yaradıcılığında davam etdirilməklə yanaşı, yeni mövzu və məzmunla, ifadə vasitələrilə zənginləşdirilmişdir. Bu janr qrupuna aid nümunələrdə aşıq yaradıcılığına xas olan musiqi xüsusiyyətləri, marş və himn janrlarının əsas cəhətləri öz təcəssümünü tapır.

Beləliklə, xalq mahnı janrlarının əsas xüsusiyyətlərinin bəstəkar mahnılarında təzahürlərini araşdırarkən, görürük ki, əsasən məişət və mərasim mahnıları öz janr əlamətlərini qoruyub saxlamış, əmək və tarixi mahnılar bəstəkar yaradıcılığında yeni keyfiyyətlər kəsb etmişdir.

**I fəslin ikinci yarımfəsli - 1.2. "Xalq mahnılarının janr xüsusiyyətlərindən bəstəkar mahnılarında istifadə olunması" adlanır.** Burada xalq mahnılarının - laylay, lirik mahnı və s., aşıq havalarının müxtəlif janr xüsusiyyətlərinin bəstəkar yaradıcılığında tətbiqi ilə bağlı bir sıra nümunələrin təhlili verilir.

Azərbaycan bəstəkarlarının yaradıcılıq irsində xalq musiqisinin əsas janrlarından biri olan laylay janrına yaxın olan mahnılar vardır. Bunlardan C.Cahangirovun "Ana ürəyi" pyesinə yazılmış "Laylay" (sözləri İslam Səfərlinindir) mahnısını nümunə göstərə bilərik. Bu mahnı xalq musiqisində kök salmış ənənəvi laylay janrının bəstəkar yaradıcılığında ifadəsidir. Bu mahnı-

da özünü göstərən laylaya xas cəhətlərin digər bəstəkarların yaradıcılığı üçün də səciyyəvi hala çevrilmişdir. F.Əmirovun, T.Quliyevin və b. bəstəkarların "Laylay" adlı mahnı nümunələrinin təhlili bunu sübut edir. Mahnıların mətnində şair tərəfindən laylaya xas olan ifadələrdən istifadə olunması, lirik xarakterli musiqi məzmunu, ənənəvi laylayların intonasiyalarına əsaslanma, qəmginlik gətirən bayatı-şiraz, şur, segah məqamlarından istifadə olunması bu janrda yazılmış mahnıların məzmununa və ruhuna çox uyğundur.

Azərbaycan bəstəkarlarının yaradıcılığında lirik mahnılar üstünlük təşkil edir. Bu mahnılar müxtəlif adlar daşıyır, bəzən "Lirik mahnı" adlandırılır. Mahnının janrını, məzmununu və xarakterini təyin edən bu anlayışın başlığa çıxarılması əsərin janr xüsusiyyətlərini qabarıq nümayış etdirir. Bu mahnılar əsasən sevgi-məhəbbət mövzusuna, həzin melodik-intonasiya məzmununa və mülayim tempə əsaslanır. Melodiyaya bu xarakteri vermək üçün bəstəkarlar əsasən segah, şur, bayatı-şiraz, şüştər və s. məqamlara müraciət edirlər. Müstəqil musiqi mövzusu əsasında yazılmış lirik mahnılarda geniş inkişaflı melodiya, ritm, məqam əsası və kuplet forması müxtəlif şəkildə özünü göstərir.

Lirik xalq mahnılarının bəstəkar mahnıları ilə janr əlaqələrindən danışarkən, C.Cahangirovun "Lirik mahnı"sını (sözləri Zeynal Cabbarzadənindir) qeyd edə bilərik. Mahnının lirik məzmununda, romantik əhval-ruhiyyə, sevgi, məhəbbət hissləri özünü qabarıq göstərir. C.Cahangirovun "Ana ürəyi" pyesinə yazılmış musiqidən "Lirik mahnı"nın (sözləri İslam Səfərlinindir) melodiyası qəmli, lirik əhval-ruhiyyəli, çox təsirli və qəlb oxşayandır. C.Cahangirovun "Bənövşə" (sözləri İslam Səfərlinindir) mahnısının quruluşunda Azərbaycan lirik xalq mahnılarına xas olan cəhətlər özünü aydın surətdə büruzə verir.

S.Rüstəmovun mahnı yaradıcılığında xüsusi yer tutan lirik mahnılarda forma quruluşu, məqam və melodik xüsusiyyətlərinə görə lirik xalq mahnılarına yaxınlıq özünü göstərir. S.Rüstəmovun "Qurban adına" mahnısında geniş axıcı melodiya, periodik quruluş xüsusiyyətləri qeyd olunmalıdır. S.Rüstəmovun "Haralısan" mahnısı lirik, oynaq xarakterli xalq mahnılarına yaxındır.

T.Quliyevin mahnılarında da xalq mahnı xüsusiyyətlərindən bəhrələnmənin gözəl nümunələrinə rast gəlirik. "Sənə də qalmaz" (Rəsul Rzanın sözlərinə) mahnısında xalq mahnıları ilə bağlı melodik xüsusiyyətlərin tanqo ritmi ilə uzlaşdırılması özünü göstərir. Bunun sayəsində xalq mahnısına xas olan cizgilərin yeni ifadə kəsb edir. Bəstəkar mahnılarının ifadəliliyi çox zaman melodik quruluşun cəhətləri ilə müəyyənləşdirilir. Bir qayda olaraq, qisa melodik qurumlar ən mühüm intonasiyanı cəmləşdirən tezis şəklində verilir və sonradan onlar melodik inkişafa təkan verirlər. T.Quliyevin "Əziz surət"

mahnısı (sözləri Zeynal Cabbarzadənindir) melodik quruluşuna görə maraqlıdır. Burada mahnının geniş melodik inkişafına təkan verən kvinta sıçrayışının məqam-intonasiya dəyişilmələrinə yol açdığını qeyd etməliyik.

F.Əmirovun mahnı yaradıcılığında lirik xalq mahnıları ruhunda nümunələr üstünlük təşkil etməklə, onların mətn və melodik əsasının xalq mahnılarına xas olan cəhətlərə malik olduğunu qeyd edə bilərik. F.Əmirovun xalq sözlərinə yazılmış "Sevdiyim yardır mənim" mahnısı musiqi xüsusiyyətlərinə görə lirik xalq mahnılarına yaxındır.

R.Mirişlinin "Dalğalar" mahnısının obrazlı məzmunu incə, kövrək hisslərlə zəngindir. Bəstəkar mahnıda sevgi-məhəbbət hisslərini təcəssüm etdirmək üçün segah məqamına istinad etmişdir.

S.İbrahimovanın "Sən məni yad et" (söz. Nəriman Həsənzadənin), "Oyan bülbül" (söz: Mirvarid Dilbazinin) mahnıları lirik xalq mahnıları ruhundadır. Mahnının quruluşunda Azərbaycan xalq mahnılarına xas olan cəhətlər özünü aydın surətdə büruzə verir.

Xalq mahnılarının melosunun bəstəkarların yaradıcılıq xüsusiyyətləri ilə müqayisəli təhlili maraqlı nəticələr verir. Belə ki, mahnı janrında xalq musiqi ənənələrinin əsas xüsusiyyətləri, məqam-intonasiya quruluşu ilə qarşılıqlı əlaqəsi öz əksini tapır.

Azərbaycan bəstəkarlarının mahnılarında xalq mahnılarından istifadə janr xüsusiyyətləri ilə yanaşı, musiqi məzmununda da özünü göstərir. Melodiyanın müəyyən ibarələrindən istifadənni qeyd etməliyik: Ü.Hacıbəylinin "Qızıl əsgər marşı"nda – "Aman nənə" , "Pilotlar" mahnısında – "Qalalıyam" xalq mahnısından, M.Maqomayevin "Tarla" mahnısında – "Güloğlan", "Bahar" mahnısında – "Səndən mənə yar olmaz", S.Rüstəmovun "Sürəyya" mahnısında – "Aman ovçu", "Alagöz" mahnısında – "Küçələrə su səpmişəm" xalq mahnı melodiyalarından istifadə olunmuşdur.

Melodiyanın ümumi ruhunun və quruluşunun xalq mahnılarına yaxınlığı – bəstəkarların xalq mahnı ruhunda əsərlər yaratmasına nümunə olaraq: Ü.Hacıbəylinin "Qaragöz", S.Rüstəmovun "Gəlmədi", "Alagöz", Ə.Abbasovun "Ceyranım gəl, gəl" və s. mahnılarını qeyd edə bilərik.

Azərbaycan bəstəkarlarının mahnılarında xalq mənbələri ilə əlaqələr məqam-intonasiya, struktur və kompozisiya xüsusiyyətləri ilə müəyyənləşir. Məhz lirik xalq mahnılarının xarakterik keyfiyyətləri müasir kütləvi mahnıların xüsusiyyətləri ilə birləşərək, hər bir bəstəkarın yaradıcılığında fərdi cizgilər kəsb edir.

Azərbaycan bəstəkarlarının mahnı yaradıcılığında aşıq musiqisinə xas olan cəhətlər müxtəlif səpkidə öz əksini tapmışdır.Azərbaycan bəstəkarları-

nın aşıq musiqisinə yanaşmasında, ondan faydalanmasında bir çox ümumi cəhətlər, aşıq musiqisinin elementləri və tanıdıcı əlamətləri özünü göstərir. Bir sıra mahnıların adında onların aşıq mövzusu ilə bağlılığı öz əksini tapır, bəzi hallarda isə aşıq havalarına yaxınlıq mahnının ümumi ruhunda, melodik quruluşunda özünü göstərir

C.Cahangirovun yaradıcılığında bu kimi mahnılara rast gəlirik. "Koroğlu" kinofilmindən "Koroğlunun mahnısı"nda (Tələt Əyyubovun sözlərinə) Koroğlunu həm qəhrəman, həm də aşıq kimi tərənnüm etmək üçün bəstəkar aşıq üslubundan istifadə etmişdir. Bu da həm mahnının məqam-intonasiya və melodik quruluşunda, həm də vokal və müşayiət partiyasının metro-ritmik xüsusiyyətlərində özünü göstərir. Melodiya aşıq havalarına xas olan reçitativ-deklamasiya xarakterlidir. Xüsusilə yüksək registrdə bir dayaq pillənin təkrarlanmaları və onun ətrafında gəzişmə aşıq havalarının melodik xüsusiyyətlərinə uyğundur. Melodiyanın quruluşu, hərəkət xətti, metro-ritmik xüsusiyyətləri aşıq havalarının səciyyəvi xüsusiyyətlərini əks etdirir. Mahnının instrumental müşayiəti də aşıq havalarının saz alətində müşayiətini xatırladan harmonik quruluşa və metro-ritmik xüsusiyyətlərə malikdir.

C.Cahangirovun "Məğlubedilməz batalyon" filmindən "Teymurun mahnısı" (sözləri Zeynal Cabbarzadənindir) ümumi ruhuna, xarakterinə görə aşıq havaları ilə müqayisə oluna bilər. Melodiyanın yüksək registrdən başlanması və tədricən enməsi, çağırış ruhlu olması aşıq havaları üçün xarakterik cəhətlərdir.

Ş.Axundovanın "Gəlirəm, ey yar" (sözləri İsgəndər Coşğunundur) mahnısı aşıq havaları ruhundadır, melodiyanın xarakteri, quruluşu, fakturanın ifadə tərzi bunu sübut edir.

S.İbrahimovanın "Bir diyarın eşqinə" (söz. Səməd Vurğunun) mahnısı xarakterinə görə lirik-epik ruhlu olub, Vətəni tərənnüm edən musiqi lövhəsidir. Bu mahnı həm məzmununa və mətn xüsusiyyətlərinə görə, həm də musiqi dilində aşıq havalarından gələn cəhətlərin tətbiqinə görə diqqəti cəlb edir.

R.Mirişlinin "Azərbaycan dünyam mənim" (Məmməd Arazın sözlərinə) melodik quruluşu zildə səslənməsi ilə, çağırış intonasiyalarına əsaslanması ilə aşıq havalarını xatırladır. Mahnının çağırış ruhlu epizodla başlamasından sonra kontrast tempdə və xarakterdə səslənən instrumental partiya daxil olur ki, bu da mahnının quruluşuna təzadlıq aşılayır. Belə bir quruluş aşıq havalarında da özünü göstərir.

Azərbaycan bəstəkarlarının mahnılarının aşıq havaları ilə əlaqəsini nəzərdən keçirərkən belə nəticəyə gəlmək olur ki, bəstəkarlar aşıq musiqisindən müxtəlif xarakterli mahnılarda istifadə etmişlər. Aşıq musiqisi ilə səsləşən

mahnılar daha çox tarixi mahnı janrına aid olub, insanların qəhrəmanlığını, vətənin tərənnümünü əks etdirir. Bu mahnılarda başlıca olaraq, aşıq musiqisinin spesifik ifadə vasitələri və üslub xüsusiyyətləri özünü büruzə verir.

**Dissertasiyanın II fəsli "Azərbaycan bəstəkarlarının vokal yaradıcılığında muğam xüsusiyyətlərinin tədqiqi məsələləri"** adlanır və iki yarımfəsilfən ibarətdir.

**II fəslin birinci yarımfəsli - 2.1. "Azərbaycan bəstəkarlarının mahnı və romanslarında təsnif janrının əlamətləri"**nin tədqiqinə həsr olunub. Azərbaycan bəstəkarlarının vokal musiqisi dərin köklərlə milli musiqi mənbələri, xüsusilə də muğamlarla bağlıdır. Bəstəkarların vokal əsərlərində muğamdan istifadə yolları müxtəlifdir və bu da musiqi dilinə xas olan bir sıra cəhətləri üzə çıxarır.

Azərbaycan bəstəkarlarının mahnı və romaslarını nəzərdən keçirərkən, qeyd etməliyik ki, bəstəkarlar çox zaman muğamdan sitat şəklində istifadə etməyərək, ancaq müəyyən məqamın səs sırası əsasında yaratdığı melodiyalarda onun intonasiya xırdalıqlarını göstərməyə çalışırlar. Bəstəkarların yaratdığı mahnılarda Avropa-klassik musiqi ənənələrini milli musiqinin qanunauyğunluğunluqları və ifadə vasitələri əsasında qovuşdurmağa nail olduqlarını qeyd etməliyik.

Azərbaycanda romans janrının yaradıcısı olan Asəf Zeynallının "Ölkəm" romansının (sözləri Cəfər Cabbarlınındır) musiqisi çox maraqlı xüsusiyyətlərə malikdir və təsniflərlə bağlı cəhətlər diqqəti cəlb edir. Bunların sırasında romansın melodikası, forma quruluşu və harmonik dili qeyd olunmalıdır. Romans muğamın musiqi inkişafının qanunauyğunluqları ilə bağlı özünəməxsus quruluşa malikdir. Burada muğamın melodik quruluş və inkişaf xüsusiyyətləri klassik üçhissəli forma ilə qovuşdurulmuşdur. Romansının kompozisiya quruluşunda formanın hissələri və melodik keçidlərdə özünü göstərən üç məqam əsası – rast, şur, segah məqamları arasındakı münasibət muğamların kompozisiya quruluşunun qanunauyğun cəhətləri kimi diqqətəlayiqdir və romansın quruluşunu təsniflərə yaxınlaşdırır.

Bəstəkarların özünəxas üslub xüsusiyyətləri çərçivəsində mahnıların melodik-intonasiya quruluşu muğamvari improvizənin geniş istifadəsini təsdiq edir. İmprovizənin yaratdığı "gəzişmə" imkanı melodiyanın intonasiya quruluşuna sərbəstlik gətirir. Muğamvari üsluba əsaslanan mahnı melodiyalarının quruluşu məqam əsası ilə sıx əlaqədardır. Janr xüsusiyyətlərinə görə bu kimi mahnılar xalq mahnılarından seçilir və təsnif janrının xüsusiyyətlərini özündə əks etdirir. Qeyd etmək lazımdır ki, təsniflərin quruluşu muğam dəstgahlarının kompozisiyası və məqam əsası ilə əlaqədar olduğuna

görə, burada əvvəlcə mayəyə əsaslanma, daha sonra kulminasiya – zildə mayəyə istinad olunması özünü göstərir.

C.Cahangirovun vokal yaradıcılığında muğamvari üslub və təsnif xüsusiyyətləri özünü qabarıq surətdə büruzə verir. C.Cahangirovun "Buludlar" (sözləri İslam Səfərlinindir) mahnısının kompozisiya quruluşunda "Bayatı-Şiraz" muğamının əsas şöbələrinin xüsusiyyətləri öz əksini tapır. Kupletdə "Bayatı-İsfahan" şöbəsinin istinad pilləsinə, nəqəratın birinci bölməsi "Zil Bayatı-Şiraz"a, ikinci bölməsi mayəyə əsaslanır.

F.Əmirovun "Gülərəm gülsən" (M.S.Ordubadinin sözlərinə) romansı melodik və forma quruluşuna görə təsnif xüsusiyyətlərini özündə əks etdirir. Romans xarakterinə görə nikbin ruhlu məhəbbət mahnılarına da yaxındır. Melodiyanın quruluşu çahargah məqam-intonasiyalarına əsaslanır. Romansın quruluşunda özünü göstərən təsnif xüsusiyyətlərindən biri də melodik kulninasiya ilə bağlıdır.

Şəfiqə Axundovanın "Neçin gəlməz" (sözləri Natəvanındır) mahnısı lirik mahnı janrının parlaq nümunələrindən biridir və özündə həmçinin, təsnif janrının xüsusiyyətlərini əks etdirir. Ş.Axundovanın "Nə sehr var səndə" (sözləri Hüseyn Cavidindir) mahnısı lirik mahnı-romans janrında yazılmış gözəl nümunələrdən biridir.

Mahnı və romansların məzmununda özünü göstərən təsniflə bağlı əlamətlər sırasında poetik mətndə qəzəldən istifadə olunmasını qeyd etməliyik. Bəstəkarların əksəriyyətinin qəzəllərə müraciət etməsinin əsas nəticəsi kimi qəzəl-romans janrında yazılmış əsərlər göstərilir. Lakin elə nümunələrə də rast gəlinir ki, poetik mətndə qəzəldən istifadə olunsa da, mahnı janrının əlaməti önə çıxır.

Bu baxımdan bəstəkar Azər Rzayevin Nizaminin qəzəli əsasında yazdığı "Lirik mahnı" adlı nümunə maraqlıdır. Burada bəstəkar Nizaminin "Ey gözəl afətlərə sultan olan!" misraları ilə başlayan qəzəlinə müraciət etmişdir. Qəzəlin avazlı oxunmasına əsaslanan melodiya lirik xarakterli olub, ağır tempdə, segah məqamının pillələri ətrafında qurulan hərəkətə malikdir. Bunlar "Lirik mahnı"nı təsnif janrına yaxınlaşdıran əsas əlamətlərdir. Ancaq onun quruluşunda lirik xalq mahnılarına xas olan xüsusiyyətlər üzə çıxır.

Bəstəkarların muğamlardan bəhrələnməsi, muğam üslubunda melodiyaların yaradılmasını və onun inkişaf prinsiplərini şərtləndirmişdir. Muğamvari inkişaf xüsusiyyətləri geniş nəfəsli melodiyalarda özünü göstərir. Mahnı və romanslarda bəstəkarların musiqisinin olduqca maraqlı intonasiya xüsusiyyətləri üzə çıxır. Onların intonasiya quruluş prinsiplərində milli xüsusiyyətlər bilavasitə muğamdan gələn intonasiyalar aparıcı rol oynayır.

**II fəslin ikinci yarımfəsli - 2.2. “Azərbaycan musiqisində qəzəl-romans janrının əsas xüsusiyyətləri”**nin tədqiqinə həsr olunmuşdur.

Azərbaycan bəstəkarlarının vokal yaradıcılığında qəzəl-romans janrında yazılmış əsərlər mühüm yer tutur. Bunlardan bəziləri öz quruluşuna görə ənənəvi romanslara yaxındır.

Üzeyir Hacıbəylinin Nizaminin sözlərinə yazdığı “Sənsiz” və “Sevgili canan” qəzəl-romansları ilə bu janrın əsası qoyulmuşdur və onlar bu sahədə ən gözəl nümunələr kimi diqqətəlayiqdir. Bəstəkar bu əsərlərdə yüksək sənətkarlıqla şeiriyyəti musiqi dilinə çevirmiş, qəzəli deklamasiya – kantilena tipli melodiyada təcəssüm etdirmişdir.

Romans-qəzəllərdə əsas cəhət əruz vəzninə xas olan bəhrlərin saxlanılmasıdır. Bu baxımdan “Sənsiz” romans-qəzəlinin metroritminin rəməl bəhrinə (fə’ilAtün fə’ilAtün fə’ilAtün fə’ilün) əsaslanmasını qeyd etməliyik. “Sevgili canan”ın ritmik şəkli isə həzəc bəhrinə (məf’Ulü məfA’İlü məfA’İlü fə’Ulün) uyğundur. Qəzəlin hər misrası bir musiqi cümləsinə oxunur və hər dəfə yeni variantlı musiqi mətni əsasında təkrarlanır. Bu cür quruluş musiqi formasının yaranmasında mühüm əhəmiyyətə malikdir. Bəstəkar romans janrı üçün səciyyəvi olan üçhissəli formanı muğamın inkişaf prinsipləri ilə uzlaşdırmışdır.

Beləliklə, Ü.Hacıbəyli Nizaminin qəzəllərindən tam şəkildə deyil, əsərin emosional məzmununa uyğun olaraq istifadə etmişdir. Bəstəkar vokal miniatürlərində qəzəlin mətninin musiqi ilə dərin vəhdətinə nail olmuş, eyni zamanda, muğam ifaçılığından gələn musiqi dilinin xüsusiyyətlərini romans janrının quruluşu ilə qovuşdurmuşdur. Romansların quruluş xüsusiyyətləri məqam əsası ilə bağlı olub, məqamlarda qurulan melodiyalar üçün ən səciyyəvi cəhətləri özündə əks etdirir. Bu da mahnı-romansların melodik və quruluş xüsusiyyətlərinin təsniflərə uyğunluğunda özünü qabarıq göstərir.

Dissertasiyada Azərbaycan bəstəkarlarının bir sıra romans-qəzəllərinin təhlili öz əksini tapmışdır. Ü.Hacıbəylinin ənənələrini davam etdirən maraqlı cəhətlərə malik əsərlər sırasında T.Quliyevin XII əsrin böyük Azərbaycan şairi Xaqaninin sözlərinə bəstələndiyi “Bəxtəvər oldu” romansı diqqətəlayiqdir. Romansının forma və melodik quruluşu bilavasitə poetik mətnin və məqam əsasının xüsusiyyətləri ilə əlaqədardır. Romas-qəzəldə “Çahargah” muğamının bütün şöbələrinin istinaq pillələrinə dayaqlanmaqla, melodik intonasiya xsusiyyətlərindən ardıcıl olaraq istifadə etmişdir. Muğamın ornamentli melodik improvizasiyası şeirin mətni ilə uyğunlaşdırılmışdır.

F.Əmirovun vokal yaradıcılığında diqqəti cəlb edən “Gülüm” romansı Nizaminin sözlərinə bəstələnmişdir. Bəstəkar Ü.Hacıbəylinin ənənələrini

davam etdirməkələ yanaşı, onu öz yaradıcılıq üslubuna uyğun xüsusiyyətlərlə zənginləşdirmişdir. F.Əmirovun romansında qəzəl mətninin musiqi ilə vəhdətindən əmələ gələn cəhətlər, muğam inkişafı üçün xarakter olan xüsusiyyətlərlə yanaşı, mahnıvarilik də özünü göstərir. Eyni zamanda, ahəngdar deklamasiya diqqəti cəlb edir ki, bu baxımdan musiqinin intonasiya quruluşunun xüsusiyyətləri mühüm rol oynayır.

Hacı Xanməmmədovun "Sərvi xuramanım" romansı Nizaminin Gəncəvinin sözlərinə yazılmışdır və romans-qəzəl janrına aid klassik nümunələrdən biri kimi maraqlı xüsusiyyətlərə malikdir. Ş.Axundovanın Nizami Gəncəvinin sözlərinə "Nə gözəl" və "Cahanda", Məhəmməd Füzulinin sözlərinə "Fəqan etməz idim" qəzəl-romansları, S.İbrahimovanın vokal yaradıcılığında Nizaminin sözlərinə bəstələnmiş "Tez gəl", "Səninlədir canım mənim", Füzulinin sözlərinə "Yüksəlir göylərə bil ahi-fəqanım mənim", "Zülfün qəmilə oldu könül mübtəla sənə" qəzəl-romanları da maraqlı musiqi dilinə malikdir və dissertasiyada təhlil olunmuşdur. Bu vokal əsərlərdə lirik, nəcib, ülvi hisslər çox inandırıcı şəkildə öz ifadəsini tapmışdır. Bu da onların musiqi üslubunun xüsusiyyətlərinə təsir göstərmişdir.

Qəzəl-romanslarda üzə çıxan bir sıra cəhətləri qeyd etmək lazımdır. Qəzəl-romans janrında yazılmış əsərlərə ifadəli reçitativ, frazaların tez-tez təkrarı xasdır. Onların melodiyası səslərin təkrarlanması və aramlı hərəkəti nəticəsində inkişaf edir. Bəstəkarların bu kimi üsullardan istifadə etməsi, qəzəlin məzmununun dinləyiciyə aramla, ardıcıl surətdə çatdırması ilə bağlıdır. Qəzəl-romansların məzmununda hicran, ayrılıq əhval-ruhiyyəsi daha qabarıq şəkildə təcəssüm edir. Bu da mətnin əsas məğzini təşkil edir. Bu cür inkişaf üsullarının klassik təsniflərə xas olduğunu qeyd etməliyik.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur və əldə olunan elmi müddəalar göstərilir.

Azərbaycan bəstəkarlarının mahnı və romansları tükənməz xalq mənbələrindən qidalanaraq, milli özünəməxsusluğunu qoruyub saxlamışdır. Bununla bərabər, mahnı və romans janrı yeni məzmun və xarakter kəsb etmişdir. Vokal musiqisi çərçivəsində müxtəlif məzmunlu, rəngarəng əsərlərin yaranması xüsusi qeyd olunmalıdır. Bəstəkar yaradıcılığında xalq üslubunda yazılmış mahnılarla yanaşı, mahnı-marş, himn, romans, ballada, qəzəl-romans tipli vokal nümunələr meydana gəlmişdir ki, bu da vokal musiqinin janr rəngarəngliyini qabarıq əks etdirir.

Azərbaycan bəstəkarlarının vokal yaradıcılığı xalq musiqisinə əsaslanaraq fərdi üslub xüsusiyyətləri kəsb etmişdir. Bəstəkar yaradıcılığında bu janr sahəsində milli musiqi ənənələrinin dərin qatları ilə bağlılığı və musiqi

dilinin milli xüsusiyyətləri qabarıq şəkildə özünü büruzə verir. Xalq mahnılarının, aşıq havalarının və muğamların xarakterik keyfiyyətləri yaradıcı şəkildə işlənib müasir kütləvi mahnı janrının xüsusiyyətləri ilə qovuşaraq, vokal musiqisinə parlaq özünəməxsusluq bəxş etmişdir.

Bəstəkar mahnılarında şifahi ənənəli musiqi janrlarından istifadə yollarını araşdırarkən, əsasən xalq mahnılarının, aşıq havalarının və təsnif janrının xüsusiyyətlərinə diqqət yetirmişik. Burada bəstəkar mahnıları ilə xalq mahnılarının, aşıq havalarının və təsniflərin arasında müqayisəli şəkildə bir neçə cəhətlər araşdırılmışdır: 1) janr uyğunluğu, obrazlı məzmun baxımından yaxınlıq və yeni cəhətlərin meydana gəlməsi; 2) bəstəkarlar tərəfindən xalq mahnılarının ayrı-ayrı melodik elementlərindən istifadə olunması; 3) xalq mahnısı, aşıq havası və ya təsnif üslubunda bəstəkar mahnılarının yaradılması; 4) şifahi ənənəli musiqi janrları üçün xarakter olan mətnlərdən (bayatı, qoşma kimi xalq şeiri nümunələrindən, qəzəllərdən və s.) bəstəkar mahnılarında istifadə olunması.

Şifahi ənənəli musiqi və bəstəkarların vokal yaradıcılığının əsas janrları arasında əlaqələr məzmun və musiqi dilinin xüsusiyyətlərində özünü göstərir. Xalq mahnılarının janr xüsusiyyətləri – laylay, uşaq, əmək mahnıları, mərasim, məişət, lirik, tarixi-qəhrəmani mahnılarla səciyyələnir. Bəstəkar mahnılarında - əmək mahnıları, uşaq mahnıları, lirik mahnılar, tarixi-qəhrəmani mahnılar, vətənpərvərlik mahnıları (marş, himn), yeni həyat mövzuları ilə bağlı mahnılar özünü göstərir.

Mahnı janrlarının qarşılıqlı əlaqəli inkişafı müxtəlif səviyyələrdə üzə çıxır. Təhlillər göstərir ki, lirik xalq mahnıları, laylay kimi janrlar bəstəkar yaradıcılığında inkişaf etdirilərək, ənənəvi məzmun, quruluş, məqam, melodik, metroritmik xüsusiyyətlərini saxlayır. Əmək mahnıları, mərasim mahnıları, uşaq mahnıları, tarixi mahnı janrları isə musiqi folklorunun janrları kimi qalaraq, bəstəkar yaradıcılığında öz davamını tapmamışdır. Bəstəkar yaradıcılığında bu janrlarda tarixi şəraitin dəyişməsi, cəmiyyətin inkişafı ilə əlaqədar olaraq, yeni məzmun və musiqi xüsusiyyətləri meydana gəlmişdir.

Musiqi dilinin xüsusiyyətləri baxımından təhlil göstərir ki, Azərbaycan bəstəkarlarının vokal yaradıcılığının əsas xüsusiyyəti melodik üslubla bağlıdır. Bəstəkarların mahnılarının dərin və mənalı məzmunu onların xalq musiqisi və muğam intonasiyalarına fərdi münasibətindən irəli gəlir. Özündə xalq mahnı janrının ən mühüm və səciyyəvi keyfiyyətlərini cəmləşdirən bəstəkar mahnılarında xalq musiqi mənbəyindən gələn məqam-intonasiya əsası, struktur və kompozisiya xüsusiyyətləri vəhdət halında özünü göstərir.

Beləliklə, bəstəkarların vokal yaradıcılığına aid nümunələrin dərin və mənalı məzmunu onların xalq musiqisi, aşıq havaları və muğam intonasiyalarına fərdi münasibəti ilə bağlıdır. Bəstəkar mahnılarında şifahi ənənəli musiqinin səciyyəvi keyfiyyətlərini cəmləşdirilərək, xalq musiqisi mənbəyindən gələn məqam-intonasiya əsası, struktur və kompozisiya xüsusiyyətləri vəhdət halında özünü göstərir. Xalq mahnılarının, aşıq havalarının və muğamların xarakterik keyfiyyətləri yaradıcı şəkildə işlənib müasir kütləvi mahnı janrının xüsusiyyətləri ilə qovuşaraq, bəstəkarların vokal musiqisinə parlaq özünəməxsusluq bəxş etmişdir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**


1. Azərbaycan bəstəkarlarının vokal yaradıcılığında janr əlaqələri. / Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XV Beynəlxalq elmi-praktiki konfransın materialları. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. B.: 2016. s. 154-156.
2. Vokal musiqidə xalq mahnılarının janr xüsusiyyətlərinin təzahürləri. // “Harmoniya” jurnalı, 2015. http://harmony.musigi-dunya.az/rus
3. Azərbaycan bəstəkarlarının mahnı və romanslarında təsnif janrının əlamətləri. // “Musiqi dünyası” jurnalı, № 3-4, 2015. http://musigi-dunya.az
4. Вокальная миниатюра жанра Тесниф в творчестве Узеира Гаджибейли: особенности и своеобразие. / Научные исследования в сфере гуманитарных наук: открытия XXI века. Материалы III Международной научно-практической конференции. 4-5 февраль 2016 года. Пятигорск, 2016. с.118-121.
5. Uşaqların musiqi yaradıcılığı. // “Ekologiya, fəlsəfə, mədəniyyət”. Elmi məqalələr məcmuəsi. Bakı, 2012. s. 257-258.
6. Sinifdənxaric musiqi məşğələlərinin təşkili. // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Naxçıvan, “Qeyrət”, 2013, № 2 (54), s. 176-177.
7. Жанровые взаимосвязи в Азербайджанской вокальной музыке. // «Поиск» Международный научный журнал-приложение республики Казахстан, № 2 (3) 2016, с. 33-35.
8. Azərbaycan bəstəkarlarının vokal musiqisində milli xüsusiyyətlərin təcəssümü. // “Musiqi dünyası” jurnalı, № 1-2, 2016, s. 127-129.

**Севда Зохраб гызы Джафарова**

**«Проблема использования жанров музыки устной традиции в вокальном творчестве азербайджанских композиторов»**

## РЕЗЮМЕ

Диссертация состоит из введения, 2-х глав, 4-х разделов, заключения и библиографии. Во введении подчеркивается актуальность, степень разработанности темы, цели и задачи, научное и практическое значение исследования.

Диссертация посвящена изучению вокального творчества азербайджанских композиторов. Автор дает характеристику песен и романсов всвязи с их тематикой, жанровыми особенностями. Особо подчеркивается опора на национальные корни – на народную песню и мугам, которые творчески претворяются композиторами в вокальном творчестве, и это привносит новые черты в музыкальный язык произведений. В диссертации дается характеристика тесниф, как одного из основных жанров мугамного искусства. В этом контексте рассматривается возникновение произведений в жанре романса-газели. Автор выявляет жанровые особенности, систематизирует эти произведения по характерным жанровым признакам.

**I глава – «Исследование характерных особенностей народной музыки в вокальном творчестве азербайджанских композиторов» - состоит из 2-х разделов: 1.1. – «Жанры музыки устной традиции и их влияние на композиторское творчество»; 1.2. – «Использование жанровых особенностей народных песен в композиторском творчестве».**

**II глава – « Вопросы исследования особенностей мугама в вокальном творчестве азербайджанских композиторов» - состоит из 2-х разделов: 2.1. – «Использование жанровых особенностей тесниф в песнях и романсах азербайджанских композиторов»; 2.2. – «Особенности жанра газель-романс в азербайджанской музыке».**

В **заключении** даются выводы и обобщения проведенного музыкального анализа.

**Sevda Zohrab Jafarova**

**“The problem of using genres of oral tradition in the vocal work of Azerbaijani composers”**

## SUMMARY

Thesis consists of introduction, two chapters, four sections, conclusion and bibliography. Actuality, degree of development of topic, purpose and tasks, scientific and practical importance of research are straightened in introduction.

The thesis is devoted to the study of the vocal creativity of Azerbaijani composers. The author gives the characteristic of songs and romances connected with their subjects, genre features. The support on national roots - on the national song and mugham which are creatively realised by the composer in vocal creativity is especially underlined and introduces new lines in musical language of works. In the thesis is characterized of the tesnifs as one of the main genres of the art of mugham is given. In this context, we examine the emergence of the works in the genre of romance-ghazals. The author reveals the genre features, organizes these works: the characteristic genre features.

**I chapters - “The study of the characteristic features of folk music in the vocal works of Azerbaijani composers” - consists of 2 sections: 1.1. - “Genres of music of oral tradition and their influence on composer creativity”; 1.2. - “The use of the genre features of folk songs in composer's creativity”.**

**II chapter chapter of the dissertation - “The questions of research of mugam's peculiarities in vocal creativity of Azerbaijani composers” - consists of 2 sections: 2.1. - “Use of genre features of tesniff in songs and romances of Azerbaijani composers”; 2.2. - “Features of the genre of gazelle romance in Azerbaijani music”.**

In **conclusion** is given inference and generalisations of musical analysis.

Çapa imzalanıb: 26.05.2017.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125

tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

**СЕВДА ЗОХРАБ гызы ДЖАФАРОВА**

# ПРОБЛЕМА ИСПОЛЬЗОВАНИЯ ЖАНРОВ МУЗЫКИ УСТНОЙ ТРАДИЦИИ В ВОКАЛЬНОМ ТВОРЧЕСТВЕ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ

**6213.01 – Музыкальное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии по искусствоведению**

**Баку - 2017**